# Əcnəbilər üçün “Azərbaycan dili” dərsliyi

Ölkə Prezidenti cənab İlham Əliyevin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı” haqqında 23 may 2012-ci il tarixli sərəncamına uyğun olaraq Azərbaycan dilinin dövrün tələbləri səviyyəsində müasir metodlarla tədrisi günümüzün aktual məsələlərindən birinə çevrilmişdir. Bu baxımdan Bakı Dövlət Universitetinin təcrübəli müəllimlərinin həmmüəllifliyi ilə ilk dəfə əcnəbi vətəndaşlar üçün kommunikativ metodla hazırlanmış yeni *“Azərbaycan dili” dərsliyi (Bakı, 2016)* son dövr dilçiliyimizin ən mühüm nailiyyətlərindən biridir. BDU-nun xarici tələbələrlə iş üzrə dekanı, dosent Gülheyran Rəhimova, alman və fransız dilləri kafedrasının müdiri, dosent Elmira Fərəcullayeva, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Məhbubə Qurbanova, Azərbaycan dilçiliyi kafedrasının dosenti Reyhan Həbiblinin həmmüəllifliyi ilə ərsəyə gəlmiş bu dərslik öz nəfis tərtibatı, əhatəliliyi, innovatik strukturu, müasir təlim və tədris metodları əsasında hazırlanması ilə əcnəbilərə Azərbaycan dilini öyrənməkdə yaxından kömək edəcəkdir.

Kitab müəllifləri uzun illər boyu məhz bu sahədə çalışan, Azərbaycan dilinə aid dərslik və dərs vəsaitləri nəşr etdirən mütəxəssislərdir. Həmin dərsliklər vasitəsilə bu gün də əcnəbilərə Azərbaycan dili dərsləri tədris olunur. Ancaq qloballaşma dövrünün tələblərini nəzərə alan müəlliflər Azərbaycan dilinin əcnəbilərə tədrisini təkmilləşdirmək məqsədilə müasir standartlara cavab verən yeni bir dərslik yaratmağa müvəffəq olmuşlar.




Dərslik yeni kommunikativ metodla hazırlanmışdır. Qeyd edək ki, kommunikativ tədris dünyanın ən müasir təhsil müəssisələrində tətbiq olunur. Hər hansı bir dilin tədrisində kommunikativ üsuldan istifadə etmək mədəniyyətlərarası ünsiyyəti də nəzərdə tutur. Azərbaycan dilinin bu üsulla tədrisi təkcə dilin öyrənilməsinə deyil, həm də Azərbaycan mədəniyyəti ilə tanışlığa da imkan yaradır ki, bu da dilin mənimsənilməsini hissediləcək dərəcədə asanlaşdırır. Kommunikativ metodun üstün cəhəti odur ki, müəllim dilin qavranılmasına müsbət təsir göstərir. Yaradıcı yanaşma dil öyrənəni maraqlandırır və onun təsəvvürlərini fəallaşdırır. Dərslikdə verilmiş dialoqlar, mətnlər, danışıq modelləri, tapşırıqlar hər moduldakı mövzunun mənimsənilməsinə yardım edir.

Bu mənada dərsliyin maraqlı cəhətlərindən biri də məhz budur ki, bütün bunlar geniş qrammatik izahat olmadan təqdim edilir. Diqqəti cəlb edən məqamlardan biri də modulların və mövzuların sərlövhələridir. Müəlliflər əcnəbilərin lüğət ehtiyatının zənginləşdirilməsi, şifahi nitqinin inkişafı üçün maraqlı priyomlardan istifadə etmişlər.

Dərsliyin digər bir orijinallığı isə qrammatikanın ayrıca - kitabın sonunda verilməsidir. Hər bir dərsin qrammatik materialına baxmaq üçün sonda səhifəsi göstərilməklə qeydlər verilib. Eyni zamanda sonda hər modula uyğun sözlük də öz əksini tapmışdır.

Dərsliyin başqa bir yeniliyi isə ayrıca tərtib olunmuş “İş dəftəri”dir ki, burada dilimizin rahat şəkildə mənimsənilməsi üçün praktik tapşırıqlar verilmişdir.

Həmçinin ilk dəfə olaraq dərsliyin üzərində əyani vəsait kimi təqdim edilən CD diskdəki video və audio materiallar Azərbaycan dilini öyrənən əcnəbilərin dinləmə və anlama bacarıqlarını formalaşdıracaqdır.

Bütövlükdə kitab dil səviyyələrinin hamısını əhatə etməklə yanaşı, Azərbaycanın təbiəti, ictimai həyatı, adət-ənənələri, görkəmli şəxsiyyətləri və s. haqqında geniş təsəvvür yaradır.

Dərsliyin dizaynı xüsusilə təqdirəlayiqdir. Mübaliğəsiz demək olar ki, əcnəbilərə Azərbaycan dilini öyrədən kitablar içərisində ilk dəfədir ki, bu dizaynda dərslik hazırlanmışdır. Kitab, həqiqətən, məzmununa, quruluşuna, tərtibinə görə cəlbedicidir, rəngarəngdir: müəlliflər dünya dilçiliyi və metodikası təcrübəsindən məharətlə bəhrələnə bilmişlər.

Nəfis tərtibatda və əhatəli şəkildə hazırlanmış belə bir dərsliyə təkcə Azərbaycanda deyil, xarici ölkələrdə də ehtiyac duyulur. Buna görə də onun təkcə ölkəmizdə deyil, respublikamızın hüdudlarından kənarda da yayılması vacibdir.

İnanırıq ki, müasir təhsil və təlim standartları əsasında hazırlanmış bu yeni dərslik Azərbaycan dilinin texnoloji vasitələrin köməyi ilə tədrisində mühüm mənbə rolunu oynayacaqdır.

**Pərvin EYVAZOV,**
*BDU-nun Türkoloji Araşdırmalar Mərkəzinin əməkdaşı*